# Xasməmmədov
# Arbitraj Müsabiqəsi

## 2026

# QAYDALAR

BAKI DÖVLƏT UNİVERSİTETİ HÜQUQ FAKÜLTƏSİ **MƏHKƏMƏ MÜSABİQƏ CƏMİYYƏTİ** TƏRƏFİNDƏN TƏŞKİL OLUNUR.

Veb-sayt: bsumootcourtsociety.org
E-poçt: info@bsumootcourtsociety.org

# Mündəricat

**Müsabiqə haqqında qısa məlumat** ........ 3

**1. Müsabiqənin təşkili** ........ 3

**2. Müsabiqədə iştirak** ........ 4

**3. Memorandumlar** ........ 5

**4. Şifahi raundlar** ........ 7

**5. Seçim mərhələsi** ........ 8

**6. Yarımfinal mərhələsi** ........ 8

**7. Final mərhələsi** ........ 9

**8. Qiymətləndirmə və sıralama** ........ 9

**9. Tətbiq olunan hüquq** ........ 11

**10. Cəzalar** ........ 11

**11. Nominasiyalar** ........ 13

## Müsabiqə haqqında qısa məlumat

2018-ci ildən bəri Məhkəmə Müsabiqə Cəmiyyəti tərəfindən təşkil olunan Xasməmmədov Arbitraj Müsabiqəsi (bundan sonra – Müsabiqə; ingiliscə: Khasmammadov Arbitration Moot (KAM)) ölkəmizdə beynəlxalq təcrübəyə uyğun keçirilən ilk arbitraj müsabiqəsidir. Əvvəllər Əlimərdan bəy Topçubaşovun xatirəsinə həsr olunan Müsabiqə 2026-cı ildən etibarən Ələkbər bəy Xasməmmədovun xatirəsinə həsr olunmaqla Xasməmmədov Arbitraj Müsabiqəsi adlandırılmışdır. Müsabiqə hüquq tələbələrinə mübahisələrin alternativ həlli üsullarından biri olan arbitraj prosesini həm nəzəri, həm də praktiki cəhətdən öyrənmə imkanı təqdim edir.

## 1. Müsabiqənin təşkili

**1.1. Təşkilatçı.** Müsabiqənin təşkilatçısı BDU Hüquq fakültəsi Tələbə Elmi Cəmiyyətinin nəzdində fəaliyyət göstərən Məhkəmə Müsabiqə Cəmiyyətidir (bundan sonra – Cəmiyyət). Cəmiyyətin Baş Koordinatoru Müsabiqədə idarəçiliyi edən şəxsdir. Baş Koordinatorun rəhbərliyi altında fəaliyyət göstərən koordinatorlar Müsabiqədə təşkilatçılığı həyata keçirirlər.

**1.2. Koordinator.** Cəmiyyətin Baş Koordinatoru tərəfindən komandalarla əlaqəni təmin etmək məqsədilə hər bir komandaya koordinator təyin edilir. Koordinator komanda nümayəndəsinin ona ünvanladığı suallara cavab verir, komandaları lazımi məlumatlarla təmin edir və Qaydaların izahı üçün edilən müraciətləri cavablandırır. Koordinatora Müsabiqə İşindəki faktlar, hüquqi məsələlər və ya tərəflərin mövqeyi üzrə həlledici məqamlara dair suallar ünvanlana bilməz.

**1.3. Mübahisələrin həlli.** Təşkilatçı Qaydaların tətbiqi ilə bağlı mübahisələri həll edir, Müsabiqə gedişində meydana çıxan və Qaydalarla tənzimlənməyən məsələlər barədə qərar verir. Təşkilatçı bu məsələlər üzrə yekun instansiyadır. Komandalar arasında yaranan mübahisə və digər məsələlərdə vasitəçilik etməsi üçün koordinatorlara müraciət edilə bilməz.

**1.4. Müsabiqə İşi.** Təşkilatçı Müsabiqə Təqvimində (bundan sonra – Təqvim) göstərilən tarixdə Müsabiqə İşini Müsabiqənin veb-saytında (kam.bsumootcourtsociety.org) yerləşdirir. Müsabiqə İşi faktlar, komandaların hüquqi arqumentasiyanı formalaşdırmalı olduqları məsələlərdən ibarətdir. Komandalar Müsabiqə İşində göstərilən faktları təhrif edə və ya yeni faktlar əlavə edə bilməzlər.

**1.5. Müsabiqə materialları.** Müsabiqənin təşkili ilə bağlı materiallar – Qaydalar, Təqvim, Müsabiqə İşi və s. yalnız 2026 Xasməmmədov Arbitraj Müsabiqəsi

üçün keçərlidir. Sözügedən materiallar Müsabiqə prosesi dövründə Təşkilatçı tərəfindən dəyişdirildikdə yalnız həmin versiya etibarlı hesab olunur. Təşkilatçı materialların ən son versiyasını Müsabiqənin veb-saytında yeniləyir və bu barədə iştirakçılara müvafiq olaraq məlumat verir. Komandaların keçmiş təcrübə və qaydalara istinad etməsi məqbul səbəb hesab edilmir.

**1.6. Arbitrlər.** Təşkilatçı hüquqşünaslar arasından Müsabiqə arbitrlərini təyin edir. Arbitrlər şifahi və yazılı təqdimatlar barədə Müsabiqə məqsədlərinə uyğun olaraq qiymət və qərarlar verirlər. Arbitrlərin verdikləri qiymət və qərarlar qətidir, mübahisələndirilə bilməz.

## 2. Müsabiqədə iştirak

**2.1. Uyğunluq.** 2, 3, 4-cü kurs bakalavr və magistr təhsili alan hüquq tələbələrindən təşkil olunmuş komandalar Müsabiqədə iştirak edə bilərlər. Müsabiqənin əvvəlki buraxılışlarında qalib olan komanda üzvlərinin yenidən iştirakına icazə verilmir.

**2.2. Say.** Hər bir komanda minimum 2 (iki), maksimum isə 6 (altı) üzvdən ibarət ola bilər. Komanda üzvlərinin sayının 2-dən az olma halı meydana gəldikdə, digər üzvün Müsabiqədə iştirakı yalnız 2.6-cı maddənin şərtlərinə əməl olunduğu halda mümkündür.

**2.3. Qeydiyyat.** Müsabiqədə iştirak etmək istəyən komandalar Müsabiqənin veb-saytında qeydiyyatdan keçməlidirlər. Hər bir üzv qeydiyyat zamanı bəyan edilməlidir.

**2.4. Nümayəndə.** Hər bir komanda Təşkilatçı ilə kommunikasiyalarda komandanı təmsil etmək üçün üzvlərindən birini nümayəndə kimi təyin etməlidir. Qeydiyyat zamanı nümayəndənin aktiv istifadə etdiyi mobil əlaqə nömrəsi və e-poçt ünvanı təqdim olunmalıdır.

**2.5. Komanda nömrəsi.** Qeydiyyatdan keçdikdən sonra hər bir komanda qeydiyyat sırasına uyğun olaraq nömrələnir və bu barədə Təşkilatçı tərəfindən komandalara məlumat verilir. Müsabiqə gedişatında komanda göstəricisi kimi bu nömrədən istifadə olunur.

**2.6. Komanda üzvünün dəyişdirilməsi.** Təqvimdə komanda üzvünün dəyişdirilməsi üçün son gün (imtina/dəyişdirilmə üçün son gün) müəyyənləşdirilir. Komanda üzvünün dəyişdirilməsi barədə məlumat Təşkilatçıya e-poçt (kam@bsumootcourtsociety.org) vasitəsilə verilir. Məlumat imtina/dəyişdirilmə üçün son gündən sonra verildiyi təqdirdə, dəyişdirilmə həyata keçirilmir.

**2.7. Müsabiqədə iştirakdan imtina.** Təqvimdə komandanın Müsabiqədə iştirakdan imtina etməsi barədə məlumat verməsi üçün son gün (imtina/dəyişdirilmə üçün son gün) müəyyənləşdirilir. İmtina barədə məlumat Təşkilatçıya e-poçt vasitəsilə verilir.

**2.8. Müsabiqədə iştirak etməmə.** Şifahi mərhələdə Müsabiqədə iştirakdan imtina edən komanda üzvlərinin Təşkilatçının digər Müsabiqələrində iştirakı qadağan olunur.

**2.9. Vicdanlılıq prinsipi.** Hər bir iştirakçıdan Müsabiqə boyu vicdanlılıq prinsipinə əməl etməsi tələb olunur.

**2.10. Komanda kabinetləri.** Komandalar üçün Müsabiqə veb-saytında komanda kabinetləri yaradılır. Bu kabinetlər vasitəsilə komandalar qarşılaşacaqları digər komandalar, çıxış edəcəkləri mövqe, qarşı komandanın memorandumları, raundların vaxtı, eləcə də topladıqları ballar və sıralamaları barədə məlumat əldə edə bilirlər.

**2.11. Xaricdən dəstək.** Komanda üzvü Müsabiqənin mərhələləri ilə bağlı komandasının üzvü olmayan hər hansı şəxslə məsləhətləşə, kömək ala və ya bu barədə təklif qəbul edə bilməz. Komandalar hər bir mərhələ üzrə arqumentlərini yalnız özləri araşdıraraq yazmalı, redaktə etməli və formalaşdırmalıdırlar.

## 3. Memorandumlar

**3.1. Tələb.** Hər bir iştirakçı komanda növbəti mərhələyə keçmək üçün ilk növbədə iddiaçı mövqeyi üzrə Memorandum hazırlayıb təqdim etməlidir.

A. **İddiaçı Memorandumu.** Hər bir komanda iddiaçı tərəfin mövqeyini dəstəkləyən Memorandum yazmalıdır. İddiaçı memorandumları üzrə ən yaxşı nəticə göstərən 10 komanda Şifahi mərhələdə iştirak hüququ qazanır.

B. **Cavabdeh Memorandumu.** Şifahi mərhələyə keçən hər bir komandaya digər rəqib komandanın iddiaçı memorandumu təqdim edilir. Komandalar onlara təqdim edilmiş iddiaçı memorandumunda irəli sürülmüş arqumentlərə cavab xarakteri daşıyan cavabdeh memorandumunu hazırlamalıdırlar. Bununla yanaşı, komandalar rəqib komandanın iddiaçı memorandumunda əks etdirilməyən, lakin zəruri bildikləri digər məsələləri də cavabdeh memorandumunda qeyd edə bilərlər.

**3.2. Tərkib.** Memorandum aşağıdakılardan ibarət olmalıdır:

i. Üz səhifəsi;
ii. Mündəricat;
iii. İstifadə olunmuş mənbələr;

iv. Faktların təqdimatı;
v. Arqumentlərin xülasəsi;
vi. Arqumentlər;
vii. Arbitraja müraciət.

Memorandumların tərkibi və onların necə yazılması barədə ətraflı məlumatın əks olunduğu "Memorandum Bələdçisi" Təqvimdə göstərilən tarixdə Müsabiqənin veb-saytına yerləşdiriləcəkdir.

**3.3. Üz səhifəsi.** Üz səhifəsində aşağıdakı məlumatlar göstərilməlidir:
i. Arbitraj adı (Xasməmmədov Beynəlxalq Arbitrajı);
ii. Tərəflərin təyinatı (iddiaçı/cavabdeh) ilə birgə adları;
iii. Komanda nömrəsi və ona bitişik olaraq Memorandumun iddiaçı və ya cavabdeh mövqeyindən olmasını göstərmək üçün müvafiq olaraq İ və ya C;
iv. Memorandumun təqdimat tarixi.

**Qeyd:** Memorandumda komanda üzvlərinin adlarından, həmçinin onların şəxsiyyətinə göndəriş edən ifadələrdən, simvol və ya işarələrdən istifadə oluna bilməz.

**3.4. Həcm.** Hər bir Memorandum maksimum 7000 sözdən ibarət ola bilər.

**3.5. İstinadlar.** İstinadlar tam və aydın olmalı, istinad olunan mənbə, onun səhifəsi və digər məlumatlar qeyd olunmalıdır. Daha ətraflı məlumat üçün BDU Tələbə Hüquq Jurnalının Məqalə Tələblərinə nəzər salmaq tövsiyə olunur.

**3.6. Təqdimat tarixi.** Hər bir Memorandum Təqvimdə göstərilən tarixə kimi təqdim olunmalıdır (10.5-ci maddə nəzərə alınmaqla). Əks halda komanda Müsabiqədə iştirak hüququndan məhrum olur.

**3.7. Təqdimat qaydası.** İştirakçı komanda iddiaçı və cavabdeh memorandumlarını Microsoft Word (*.docx) formatında komanda kabinetindəki müvafiq bölmə vasitəsilə təqdim etməlidir. Memorandumların fayl adında tərəflərin komanda nömrəsi və təyinatı əks olunmalıdır (məsələn, 2İ, 2C).

**3.8. Təkrar təqdimat.** Memorandumlar təqdimat üçün müəyyən olunmuş tarixə qədər bir neçə dəfə təkrarən təqdim edilə bilər. Təqvimdə müəyyən olunmuş tarixdən əvvəlki ən son təqdimat Müsabiqə məqsədləri üçün rəsmi olaraq yekun təqdimat kimi qəbul edilir. Komanda müvafiq tarixdən sonrakı təqdimatının əsas hesab olunmasını tələb edərsə, Təşkilatçı 10.5-ci maddədə nəzərdə tutulmuş cəzanı tətbiq etməklə yeni təqdimatı nəzərə alır. Bu halda yalnız bir dəfə təkrar təqdimat imkanı tanınır.

**3.9. Memorandumlardan istifadə.** Bütün göndərilən Memorandumlar Təşkilatçının səlahiyyətinə keçir. Təşkilatçı Memorandumları Qaydalara

uyğunluğu təsdiq etmək üçün yoxlayır. Qaydaların pozulduğunu aşkar etdiyi halda, Memorandumlara cəza balını tətbiq edir və onları qiymətləndirmə üçün arbitrlərə göndərir. O, Memorandumları öz diskresion səlahiyyəti daxilində sonrakı illərdə başqa iştirakçılar tərəfindən nümunə kimi oxunula bilməsi də daxil olmaqla, müxtəlif qanuni məqsədlər üçün istifadə edə bilər.

## 4. Şifahi raundlar

**4.1. Tərəflər.** Şifahi raundda bir komanda iddiaçı, digər komanda isə cavabdeh kimi çıxış edir. Hər komanda raundda iki nəfərlə təmsil olunur. Əvvəlcə iddiaçı komandanın iki üzvü ard-arda arbitrlər qarşısında çıxış edir, sonra cavabdeh komandanın iki üzvü eyni qaydada raundu davam etdirir.

**4.2. Müddət.** Hər bir tərəfin şifahi çıxışlar üçün vaxtı 30 (otuz) dəqiqə ilə məhdudlaşır. Komandanın bir üzvü bir şifahi raundda 20 (iyirmi) dəqiqədən artıq çıxış edə bilməz. Arbitrlərin verdiyi suallar və onların cavablandırılması da ayrılmış vaxta daxildir. Sədrlik edən arbitr vaxt bitəndən sonra çıxış edənə çıxışı sonlandırmaq və ya sualı cavablandırmaq üçün əlavə vaxt ayıra bilər. Əlavə olaraq, hər bir komanda raunddan əvvəl Təşkilatçıya çıxış edən komanda üzvləri və onlar arasındakı vaxt bölgüsü barədə məlumat verməlidir. Təşkilatçı raund ərzində istifadə edilən vaxta nəzarət edir və 20, 10, 5, 3, 1, Dayan yazılı çap olunmuş kağızlarla komandalara qalan vaxt barədə məlumat verir.

**4.3. Təkzib və əks-təkzib.** Hər bir komanda şifahi çıxışlar üçün nəzərdə tutulmuş vaxtın maksimum 3 (üç) dəqiqəsini təkzib və əks-təkzib üçün ayıra bilər. Təkzib və əks-təkzib zamanı hər bir tərəf üzrə yalnız bir komanda üzvü çıxış edir. İddiaçı tərəfin təkzib hüququndan istifadə etməməsi cavabdehin əks-təkzib etməməsinə səbəb olur.

**4.4. Çap olunmuş Memorandumlar.** İştirakçı komanda təyin olunmuş şifahi raund başlamazdan öncə 3.8-ci maddənin tələblərini nəzərə almaqla, mövqeyinə aid Memorandumları A4 ölçülü kağız daşıyıcıda, 4 (dörd) nüsxədə təqdim etməlidir.

**4.5. Çıxışlar.** İddiaçı və cavabdeh tərəf çıxışlarını Müsabiqə İşi üzrə müvafiq olaraq öz mövqelərini müdafiə edən arqumentlər və əks-arqumentlər əsasında əyləşərək təqdim edirlər. Çıxış edən şəxsin öz komanda üzvü və ya üzvləri, həmçinin digər kənar şəxslərlə danışması və ya hər hansı şəkildə əlaqə saxlaması qadağan olunur. Şifahi raundlar raundda iştirak etməyən və cari mərhələdə iştirakı davam edən digər komandalar üçün qapalı keçirilir.

**4.6. Kommunikasiya.** Komandalar raundlar zamanı digər komandanın nitqini yarıda kəsməməli və digər etik davranış qaydalarını gözləməlidirlər. Komanda üzvləri arasındakı kommunikasiya digər komandanın nitqinə mane olmamalı və müvafiq məsələlərlə bağlı qeydlər yalnız nitq tamamlanana qədər kağız üzərində aparılmalıdır. Raund boyunca mexaniki saat istisna olmaqla, elektron vasitələrdən istifadə qadağandır.

**4.7. Ex parte proses.** Komanda çıxış etməli olduğu raund üçün Təşkilatçının təyin etdiyi vaxtda gəlməzsə və ya çıxış üçün yetərli sayda komanda üzvü olmazsa, Təşkilatçı 15 (on beş) dəqiqə gözlədikdən sonra mövcud halları nəzərə alaraq raundun ex parte keçirilməsinə qərar verə bilər. Belə olan halda, raund yalnız qarşı tərəfin çıxışının qiymətləndirilməsi ilə baş tutur, iştirak etməyən komanda şifahi raundda qazana biləcəyi 6 (altı) raund balından imtina etmiş hesab olunur.

## 5. Seçim mərhələsi

**5.1. İştirakçılar**. Seçim mərhələsinin iştirakçıları 8.1-ci maddəyə əsasən, iddiaçı memorandumlarının qiymətləndirilməsi nəticəsində yekun göstəriciləri ən yüksək olan 10 (on) komandadır.

**5.2. Qarşılaşmala**r. Hər bir iştirakçı komanda Seçim mərhələsinin şifahi raundlarında bir dəfə iddiaçı, bir dəfə cavabdeh kimi çıxış etməklə, cəmi 2 raundda iştirak edir. Təşkilatçı iştirakçı komanda sayını və mövcud şəraiti nəzərə alaraq, iştirakçı komandanın iki dəfə iddiaçı və ya iki dəfə cavabdeh kimi çıxış etməsinə dair qərar verə bilər.

**5.3. Yarımfinala keçid.** Seçim mərhələsinin qiymətləndirməsinə əsasən, ilk 4 (dörd) pillədə qərarlaşan komanda Yarımfinal mərhələsinə keçid edir.

## 6. Yarımfinal mərhələsi

**6.1. Mərhələnin tərkibi.** Mərhələ 4 (dörd) raunddan ibarətdir.

**6.2. İştirakçılar.** Seçim mərhələsində ən yüksək nəticə göstərmiş 4 (dörd) komanda Yarımfinal mərhələsində iştirak edir.

**6.3. Qarşılaşmalar.** Seçim mərhələsində birinci yeri tutan komanda iddiaçı qismində dördüncü yerin cavabdehinə, cavabdeh qismində isə üçüncü yerin iddiaçısına qarşı çıxış edir. İkinci yeri tutan komanda isə iddiaçı kimi üçüncü yerin cavabdehinə, cavabdeh kimi isə dördüncü yerin iddiaçısına qarşı çıxış edir.

**6.4. Final mərhələsinə keçid.** Yarımfinal mərhələsinin qiymətləndirməsinə əsasən, ilk 2 (iki) pillədə qərarlaşan komanda Final mərhələsinə keçir.

## 7. Final mərhələsi

**7.1. Mərhələnin tərkibi.** Mərhələ bir raunddan ibarətdir.

**7.2. Qarşılaşma.** Komandaların iddiaçı, yaxud cavabdeh kimi çıxış edəcəyi Təşkilatçı tərəfindən püşkatma əsasında müəyyən olunur. Əgər komanda əvvəlki mərhələlərdə qarşılaşmışlarsa, Final raundunda fərqli mövqedən çıxış edirlər.

## 8. Qiymətləndirmə və sıralama

**8.1. Memorandumlar.** Hər bir Memorandum 3 (üç) arbitr tərəfindən 50-100 bal aralığında qiymətləndirilir. Hər bir Memorandumun ala biləcəyi xam bal minimum 150, maksimum 300-dür. Fövqəladə hal yarandığı təqdirdə, Memorandum yalnız 2 (iki) arbitr tərəfindən qiymətləndirilir və üçüncü arbitrin balı digər iki arbitrin balının ədədi ortası əsasında müəyyən edilir.

**8.2. Şifahi raundlar.** Şifahi raundda (Final raundu istisna olmaqla) komandaların çıxış edən hər iki üzvü 3 (üç) arbitr tərəfindən 50-100 bal aralığında qiymətləndirilir. Raundlarda müvafiq tərəfi təmsil etmək üçün iki üzv çıxış etdiyinə görə qiymətləndirmə üzrə bir komandanın bir arbitrdən ala biləcəyi xam bal minimum 100, maksimum 200-dür. Fövqəladə hal yarandığı təqdirdə, raund yalnız 2 (iki) arbitr tərəfindən qiymətləndirilir və üçüncü arbitrin balı digər iki arbitrin balının ədədi ortası əsasında müəyyən edilir.

**8.3. Raundun nəticəsi.** Qarşılaşmada ən çox raund balı toplayan tərəf raundun qalibi hesab olunur. Yekun raund balı Memorandumlar və şifahi raundlar üzrə toplanmış raund ballarının cəmindən ibarətdir. Komandaların yekun raund balları bərabər olarsa, daha çox xam bal toplamış tərəf qalib olur. Raund balları və xam ballar bərabər olarsa, hər bir komandanın hesabına bir bərabərlik yazılır və sıralamada nəzərə alınır. Bir raund üzrə raund balları və xam ballar aşağıdakı qaydada hesablanır.

a. **Memorandum üzrə raund balları.** Memoranduma verilmiş aşağı, orta və yuxarı xam balların qarşılaşdırılmasından əldə edilən hər üstünlük komandaya 1 (bir) raund balı qazandırır. Qarşılaşdırılmada bərabərlik halı müşahidə olunarsa, hər belə göstərici üzrə həm iddiaçı, həm cavabdeh 0.5 raund balı əldə edir. Beləliklə, bir raundda Memorandum üzrə bir komandanın qazana biləcəyi maksimum raund balı 3 (üç) baldır. Məsələn:

| Tərəf | Aşağı | Orta | Yuxarı |
|---|---|---|---|

<table>
<tr><td>İddiaçı</td><td>74</td><td>77</td><td>79</td></tr>
<tr><td>Cavabdeh</td><td>75</td><td>76</td><td>77</td></tr>
<tr><td colspan="4">Memorandumların xülasəsi: İddiaçı ikinci və üçüncü bal göstəricisi ilə üstün olmaqla 2 raund balı, cavabdeh ilk bal göstəricisi ilə 1 raund balı qazanır. İddiaçının toplam xam Memorandum balı 230, cavabdehin toplam xam Memorandum balı 228 olmuşdur.</td></tr>
</table>

b. Bir arbitrin bir komandaya verdiyi toplam xam bal digər komandaya verdiyi toplam xam balı üstələyirsə, komanda həmin arbitrdən 2 (iki) raund balı qazanır. Arbitr hər tərəfə ümumilikdə eyni balı verərsə, iddiaçı ilə cavabdeh hər biri 1 (bir) raund balı qazanır. Bir komandanın bir raundda üç arbitrdən ala biləcəyi maksimum raund balı 6 (altı) baldır. Məsələn:

<table>
<tr><th>Komanda</th><th>Komanda üzvü</th><th>I Arbitr</th><th>Toplam</th><th>II Arbitr</th><th>Toplam</th><th>III Arbitr</th><th>Toplam</th></tr>
<tr><td rowspan="2">K10</td><td>I</td><td>80</td><td rowspan="2">158</td><td>79</td><td rowspan="2">155</td><td>82</td><td rowspan="2">160</td></tr>
<tr><td>II</td><td>78</td><td>76</td><td>78</td></tr>
<tr><td rowspan="2">K5</td><td>I</td><td>78</td><td rowspan="2">153</td><td>76</td><td rowspan="2">150</td><td>81</td><td rowspan="2">157</td></tr>
<tr><td>II</td><td>75</td><td>74</td><td>76</td></tr>
<tr><td colspan="8">Şifahi çıxışların xülasəsi: İddiaçı birinci, ikinci və üçüncü arbitrin hər birindən daha yuxarı bal almaqla toplam 6 raund balı qazanır. İddiaçı komanda şifahi qiymətləndirmədən 473, cavabdeh komanda isə 460 xam bal qazanmışdır.</td></tr>
</table>

Memorandumlar və şifahilər üzrə raund balların cəmlənməsi nəticəsində iddiaçı 8 (səkkiz), cavabdeh 1 (bir) yekun raund balı əldə etdiyindən iddiaçı raundun qalibidir. Beləliklə, iddiaçının hesabına bir qalibiyyət yazılır.

**8.4. Seçim və Yarımfinal mərhələləri üzrə sıralama.** Hər mərhələdə sıralama qalibiyyət çoxluğu ilə müəyyən olunur. Komanda müvafiq mərhələdə iştirak etdiyi raundlar üzrə nə qədər çox qalibiyyət əldə edərsə, sıralamada bir o qədər yuxarı mövqedə qərarlaşır. Qalibiyyət sayı sıralamanı dəqiqləşdirmək üçün kifayət etmirsə, daha çox bərabərlik əldə etmiş komanda daha yuxarı mövqedə qərarlaşır. Bərabərlik sayı sıralamanı dəqiqləşdirmək üçün kifayət etmirsə, sıralama toplanmış xam bal əsasında müəyyən edilir. Xam bal da sıralamanı dəqiqləşdirmək üçün kifayət etmirsə, sıralama raund ballarının cəmi əsasında dəqiqləşdirilir.

**8.5. Sıralamada bərabərlik və ya heç-heçə halı.** Sıralama zamanı bir neçə komanda eyni yeri bölüşərsə, sıralamanın dəqiqləşdirilməsi üçün aşağıdakılar ardıcıllıqla bərabərlik aradan qalxana qədər tətbiq olunur:

i. Arbitrlər tərəfindən verilmiş ən yüksək memorandum balları çıxmaqla, əgər bərabərlik yenə qalsa...

ii. Hər bir arbitr tərəfindən komandaya verilən ən yüksək və ən aşağı şifahi çəkişmə balları çıxdıqdan sonra ən yüksək ümumi bal, əgər bərabərlik yenə qalsa...

iii. Hər bir arbitr tərəfindən komandaya verilən ən yüksək və ən aşağı cavabdeh memorandum qiymətləri çıxdıqdan sonra ən yüksək ümumi bal, əgər bərabərlik yenə qalsa...

iv. Hər bir arbitr tərəfindən komandaya verilən ən yüksək 2 (iki) və ən aşağı 2 (iki) şifahi çəkişmə balları çıxdıqdan sonra ən yüksək ümumi bal, əgər bərabərlik yenə qalsa...

v. Hər bir arbitr tərəfindən komandaya verilən ən yüksək 2 (iki) və ən aşağı 2 (iki) memorandum balları çıxarılmaqla; bərabərlik pozulana qədər.

Əgər bərabərlik bu yolla pozulmazsa, Təşkilatçı digər üsullar tətbiq edir.

**8.6. Nəticələrin elanı.** Təşkilatçı hər mərhələ üzrə qiymətləndirmə yekunlaşdıqdan sonrakı 24 (iyirmi dörd) saat ərzində qiymətləndirmə nəticələrini komanda kabinetlərinə yerləşdirir. Müsabiqə yekunlaşdıqdan sonrakı 14 (on dörd) gün ərzində isə Müsabiqənin yekun sıralamaları və nəticələri barədə ətraflı məlumat kabinetdə yerləşdirilir.

## 9. Tətbiq olunan hüquq

**9.1. Yerli qanunvericilik.** Azərbaycan Respublikası qanunvericiliyinə daxil olan bütün aktlar (o cümlədən Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələr) arqumentlərin əsaslandırılması üçün tətbiq oluna bilər.

**9.2. Xarici praktika və doktrinal mənbələr.** Xarici ölkələrin hüquq praktikasına və akademik/doktrinal mənbələrə də istinad edilə bilər.

## 10. Cəzalar

**10.1. Şifahi raundlara gecikmə.** Komanda raundun keçiriləcəyi yerə əvvəlcədən məlumat verilmiş tarixdə və saatda gəlmədikdə gecikilən hər 15 (on beş) dəqiqə 5 (beş) balla cəzalandırılır. Bu cəza hər bir arbitrin komandaya verdiyi baldan çıxılır.

**10.2. Əlavə vasitələrdən istifadə.** Raundda iştirak edən komanda üzvlərinin raund ərzində mexaniki saat istisna olmaqla, elektron vasitələrdən istifadəsi qadağandır. Bu cür vasitələrdən istifadəyə görə 5 (beş) bal cəza tətbiq olunur.

**10.3. Üz səhifəsi məlumatları.** Hər hansı komanda Memorandumların üz səhifəsi ilə bağlı 3.3-cü maddəyə əməl etmədikdə 2 (iki) balla cəzalandırılır. Cəza balı bu hal müşahidə olunan Memorandum üzrə hər bir arbitrin balından çıxılır.

**10.4. Normadan artıq uzunluq.** Komandalar Memorandum üzrə Qaydalarda müəyyən olunmuş söz sayı limitini keçməyə görə limiti keçən hər 1-100 arası söz üçün 3 (üç) balla cəzalandırılır. Bu cəza balı Memorandumun arbitrin hər birindən aldığı baldan çıxılır.

**10.5. Memorandumların gec təqdimatı.** Hər hansı bir komanda Memorandumları Təqvimdə nəzərdə tutulmuş tarixdən sonra 3.6-cı və 3.7-ci maddələrə əməl etmədən təqdim edərsə, həmin tarixdən sonrakı hər 1 (bir) gecikmə günü 5 (beş) balla cəzalandırılır. Cəza balı bu hal müşahidə olunan müvafiq Memorandumlar üzrə hər bir arbitrin balından çıxılır. Komanda Memorandumu Təqvimdə müəyyən olunmuş tarixdən sonrakı 3 (üç) gün ərzində təqdim etməzsə, Müsabiqədən kənarlaşdırılır və Təşkilatçının digər Müsabiqələrində iştirakı qadağan olunur.

**10.6. Plagiat hallarının müəyyənləşdirilməsi.** Memorandumlarda plagiarizmdən istifadə həmin Memorandum üçün 1-50 bal aralığında cəza ilə nəticələnir. Plagiarizmdən istifadə həcmi əhəmiyyətli olarsa, iştirakçı komanda Müsabiqədən kənarlaşdırılır.

**10.7. Süni intellektdən istifadənin yolverilməzliyi.** Aşağıdakılar süni intellektdən istifadənin qaydalarını pozur:

i. Cəmiyyətin Müsabiqə ilə əlaqəli paylaşdığı materiallardan istifadə etməklə süni intellekti öyrətmək;

ii. Süni intellekt vasitəsilə yaradılmış mətni təqdim etmək (sonradan edilən dəyişiklik və ya əlavələr bu halı dəyişdirmir).

Süni intellektdən istifadə həmin Memorandum üçün 1-50 bal aralığında cəza ilə nəticələnir. İstifadənin həcmi əhəmiyyətli dərəcədə olarsa, iştirakçı komanda Müsabiqədən kənarlaşdırılır.

**10.8. Diskresion cəza.** Peşəkarlığa, etikaya, habelə çıxışlarda və arbitrlərə qərəzli davranış, rəqibləri ədalətsiz üstələmə cəhdləri, arbitrlərə kimlik barədə işarə vermək, arbitrlərin qiymətləndirmə müzakirəsinə müdaxilə və sair kimi Müsabiqənin gedişatını təhlükəyə salan və Müsabiqənin məqsədlərinə zidd əməllər barədə Təşkilatçı diskresion cəza tətbiq edə bilər.

## 11. Nominasiyalar

Təşkilatçı *"Xasməmmədov Arbitraj Müsabiqəsinin Qalibi"*, *"Xasməmmədov Arbitraj Müsabiqəsinin Finalisti"* adından başqa, *"Ən Yaxşı İddiaçı Memorandumu"*, *"Ən Yaxşı Cavabdeh Memorandumu"*, *"Ən Yaxşı Natiq"* və Müsabiqənin məqsədləri üzrə uyğun bildiyi digər nominasiyalar üzrə qalibləri elan edə bilər.